AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

17 aprel 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 14 (3726)



# Azərbaycanın nüfuzu artır

## Prezident İlham Əliyev dünya miqyaslı liderə çevirilib

**Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən, praqmatik siyasət nəticəsində Azərbaycan mühüm siyasi, iqtisadi və humanitar mərkəzlərdən birinə çevrilib.**



Azərbaycan dünya birliyində sabitlik, inkişaf və əməkdaşlıq simvolu kimi çıxış edir. Ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin və beynəlxalq təşkilatların sayı durmadan artır. Xarici siyasətdə balanslaşdırılmış yanaşma, qarşılıqlı hörmətə və faydaya əsaslanan münasibətlər Azərbaycanın beynəlxalq nüfuzunun artmasına şərait yaradıb. Dövlətimizin başçısının beynəlxalq və regional tədbirlərdə iştirakı, habelə Azərbaycanın ev sahibliyi etdiyi yüksəksəviyyəli Zirvə görüşləri ölkəmizə olan marağın və etimadın bariz göstəricisidir.

Prezident İlham Əliyevin Türkiyənin Antalya şəhərində keçirilən IV Antalya Diplomatiya Forumunda iştirakı Azərbaycanın beynəlxalq nüfuzunun davamlı artmasının növbəti təsdiqi oldu. Dövlətimizin başçısının bu forumda iştirakı bir daha göstərdi ki, Azərbaycan yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edilir. Dövlətimizin başçısının beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəsi, strateji baxışları və praqmatik yanaşmaları onu beynəlxalq platformalarda böyük maraqla qarşılanan liderə çevirib.

Məlumat üçün qeyd edək ki, forumda 15-ə yaxın dövlət və hökumət başçısı, 50-dən yuxarı nazir iştirak edirdi. Bundan başqa, tədbirdə NATO və ATƏT də daxil olmaqla, 44 regional və beynəlxalq təşkilatın rəhbərləri və təmsilçiləri də olmaqla, ümumilikdə 5 mindən yuxarı nümayəndə iştirak edib. Forumda yeni diplomatik münasibətlərin formasının tapılması, həmçinin qlobal və regional məsələlər, eləcə də böhran və münaqişələrin həlli yolları müzakirə olunub. Mütəxəssislər hesab edirlər ki, Antalya Diplomatiya Forumu ölkəmiz üçün mühüm platformadır, burada Azərbaycanın regional yeri və rolu, 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbədən sonra bölgədə yaranmış yeni geosiyasi münasibətlərin faydalılığı, sülh və təhlükəsizlik təşəbbüsləri dünyaya təqdim olundu.

Ayrıca olaraq qeyd edilməlidir ki, Azərbaycan və Türkiyə arasında əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş "Bir millət, iki dövlət" prinsipinə əsaslanan münasibətlər bu gün hər iki ölkənin rəhbərlərinin siyasi iradəsi və şəxsi dostluqları sayəsində ən yüksək zirvəyə çatıb. Bu münasibətlər təkcə iki qardaş ölkə arasında deyil, həm də regionun təhlükəsizliyi və inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında formalaşmış qarşılıqlı etimada əsaslanan əməkdaşlıq bu birliyin davamlılığını və gücünü təmin edən əsas amillərdəndir.

Antalyada keçirilən görüşlər Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı vəziyyətinə və inkişaf perspektivlərinə dair əhəmiyyətli fikir mübadiləsi üçün də geniş imkanlar yaratdı. Antalyaya səfər ikitərəfli əməkdaşlığın siyasi, iqtisadi, enerji, nəqliyyat, müdafiə və digər sahələrdə daha da dərinləşdirilməsi baxımından mühüm addım idi. Bununla yanaşı, Forum zamanı Prezident İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyəti, Sudan, Suriya və Gürcüstan liderlərilə keçirdiyi görüşlər dünyada da xüsusilə diqqət çəkdi. Bu onu göstərdi ki, Azərbaycan və Türkiyə birlikdə regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarları kimi çıxış edirlər.

# Təkbətək görüş

## Dövlət başçıları bəyanatlarla çıxış ediblər

Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin təkbətək görüşü keçirilib. Daha sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, Avropanın enerji təhlükəsizliyini Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil: “Azərbaycan və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat-kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir”.

# Prezidentin qəbulu

## Sosial məsələlərdə əməkdaşlıq

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonu qəbul edib. Görüşdə dövlətimizin başçısı işğaldan azad olunmuş torpaqlarımızda aparılan bərpa və quruculuq işləri ilə yanaşı, həmin ərazilərə qayıdan insanların işlə təmin edilməsinin ən vacib məsələlərdən biri olduğunu xatırladıb. Dövlətimizin başçısı bununla bağlı Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

# Nəcib təşəbbüs

## Birinci vitse-prezident körpələr evinə baş çəkib

Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 15-də Bakının Nəsimi rayonunda yerləşən 1 saylı körpələr evində və Nizami rayonundakı 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olublar. 1 saylı körpələr evində hazırda 3 yaşadək 63 uşaq var. Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi surətdə burada olur, balacalara xüsusi qayğı ilə yanaşırlar. 1 saylı uşaq evi sosial xidmət müəssisəsində isə 3 yaşdan 18 yaşadək 100 uşaq var. Onların təhsil alması, idmanla məşğul olması və sağlamlıqlarının təmin edilməsi üçün hər cür şərait yaradılıb.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev aprelin 15-də apellyasiya instansiyası məhkəməsi sədrinin müavininin, apellyasiya instansiyası məhkəmələri məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev aprelin 14-də Cəlilabad rayonunun Sərhədabad-Əliabad-Zəhmətabad-Soltankənd avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev aprelin 14-də “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 7 mart 2025-ci il tarixli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.
- Azərbaycan Respublikasının məhkəmə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə R.S.Qvaladze 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib. Prezident İlham Əliyev aprelin 10-da bununla bağlı Sərəncam imzalayıb.

# Zəngəzura gedən yollar

## Layihə region üçün əhəmiyyətli olacaq

Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütün ətraf ölkələr üçün böyük önəm kəsb edir. Əlbəttə ki, ilk növbədə, dəhliz Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək və bununla da Naxçıvanın blokadasına son qoyulacaq.

Eyni zamanda, dəhliz fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir.

Zəngəzur dəhlizinin açılması Ermənistanın öhdəliyi olsa da, hazırda ermənilər bunu yubadır. Azərbaycan isə bu istiqamətdə layihələrin icrasını başa çatdırmaq üzrədir. Verilən məlumata görə, Azərbaycan və Türkiyə prezidentlərinin təməlini qoyduğu, uzunluğu 123.6 km olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi artıq 93 faiz səviyyəsində tamamlanıb. Bildirilib ki, Zəngəzur dəhlizi layihəsinin texniki göstəriciləri, yolun yüksək keyfiyyətlə və müasir standartlara uyğun inşa edilməsini təmin edir. Yolun ümumi uzunluğu 149.9 km təşkil edir. Əsas yolun uzunluğu isə 123.6 km-dir.



Zəngəzur dəhlizinin tikintisindəki mühüm layihə komponentlərindən biri tunellərdir. Tunellər üzrə tikinti işləri artıq böyük ölçüdə tamamlanıb. Layihə üzrə ümumilikdə 28 körpü tikilir.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun inşası, Azərbaycanın infrastruktur sahəsində atdığı mühüm addımlardan biridir.

Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir. Zəngəzur dəhlizinin tikintisi yalnız infrastruktur layihəsi olmaqla kifayətlənmir, həm də regional inteqrasiyanın mühüm bir hissəsidir. Bu yol, yalnız nəqliyyat sistemini gücləndirmək deyil, həm də regionda iqtisadiyyatın inkişafını sürətləndirmək və strateji əlaqələri gücləndirmək üçün mühüm bir vasitə olacaqdır. Yaxın gələcəkdə bu layihənin tam olaraq istifadəyə verilməsi region üçün yeni üfüqlər açacaq.

Əsas meyar peşəkarlıqdır 2

Veteranlar sıralarımızdadırlar 2

“Dəmir atlı” qəhrəmanın qardaşı 3

“Zeigarnik” effekti 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Nazirlər sülhü müzakirə ediblər

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü olub. Məlumata görə, nazir Ceyhun Bayramov və Ararat Mirzoyan arasındakı ikitərəfli görüş Türkiyədə keçirilən Antalya Diplomatik Forumu çərçivəsində baş tutub. Tərəflər sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sülh Sazişi mətninin yekunlaşdırılmasından sonra normallaşma prosesinin hazırkı vəziyyətini müzakirə ediblər.

### Qarabağ Universitetinin filialları açılacaq

Növbəti illərdə Qarabağ Universitetinin 10 fakültəsi fəaliyyət göstərəcək. Bunu elm və təhsil naziri Emin Əmrullayev Xankəndidə "Heydər Əliyev və suveren Azərbaycan" mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib. Nazir qeyd edib ki, 2030-cu ilə qədər universitetin Musiqi fakültəsi Şuşada, Kənd təsərrüfatı fakültəsi isə Xocalıda fəaliyyətə başlayacaq.

### Gələn ilin əsas büdcə xərcləri

Azərbaycanın 2026-cı il dövlət büdcəsi üzrə xərclərin proqram təsnifatı açıqlanıb. Maliyyə Nazirliyinin məlumatına görə, təhsil sektoru üzrə 11 proqramın icrası üçün 5 milyard 063,2 milyon manat, kənd təsərrüfatı sektoru üzrə 8 proqram üçün 1 milyard 180,6 milyon manat, ətraf mühitin mühafizəsi sektoru üzrə isə 6 proqram üçün 424,8 milyon manat vəsait nəzərdə tutulur.

### Yenidənqurma diqqət mərkəzindədir

2025-2029-cu illərdə azad olunmuş ərazilərin yenidən qurulması üçün xərclərin 20 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Bu xərclər dövlət büdcəsinin əsaslı xərclərinin təxminən 30 faizini təşkil edəcək. Qeyd edək ki, 2024-cü ildə 5,35 milyard manat vəsait ayrılıb. 2025-ci ildə isə bu istiqamətdə 4 milyard manat vəsait ayrılması nəzərdə tutulub.

### Əhalinin gəlirləri artıb

Cari ilin yanvar-mart aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz artaraq 20 milyard 690,7 milyon manat və ya hər nəfərə orta hesabla 2022,6 manat olub. Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, əhalinin sərəncamında qalan gəlirləri 18 milyard 85,4 milyon manat təşkil edib.

### Naxçıvanda ticarət dövriyyəsi artır

Bu ilin yanvar-mart aylarında Naxçıvanın xarici ticarət dövriyyəsi 27 milyon 457 min 60 ABŞ dolları təşkil edib. Məlumata görə, ticarət dövriyyəsinin 2 milyon 611 min 380 ABŞ ixrac olunmuş məhsulların, 24 milyon 845 min 680 ABŞ dollarını isə idxal məhsullarının dəyəri təşkil edib. Ötən illə müqayisədə xarici ticarət dövriyyəsi 10,2 faiz, o cümlədən ixrac 1,5 faiz, idxal isə 11,2 faiz artıb.

### Neft və qaz ixracı nə qədər olub?

Azərbaycanda I rübdə 7 milyon tona yaxın neft-kondensat hasil edilib. Bu ilin birinci rübündə operativ məlumatlara əsasən, Azərbaycanda neft-kondensat hasilatı 6,9 milyon ton, ixracı isə 5,7 milyon ton olub. Energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib ki, ötən rüb 12,6 milyard kubmetr qaz hasil edilib. 6 milyard kubmetr qaz isə ixrac olunub.

### Xankəndi təhlükəsizdir

Suveren Azərbaycanın bütün ərazilərində olduğu kimi işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Xankəndidə də cinayətkarlığa qarşı mübarizə, qanunun qorunması ilə bağlı bütün tədbirlər görülür. Bunu Xankəndi şəhər prokuroru, ədliyyə müşaviri Rəşadət Orucov deyib.

### Manatın məzənnəsi sabit qalacaq

Azərbaycanda yaxın 5 ildə manatın məzənnəsinin sabit qalacağı gözlənilir. 2029-cu ilin sonuna qədər Azərbaycan manatının ABŞ dollarına qarşı məzənnəsinin sabit qalacağı proqnozlaşdırılır. Maliyyə Nazirliyinin məlumatına görə, İqtisadiyyat Nazirliyinin təqdim etdiyi makroiqtisadi proqnozlarda 2026-2029-cu illər üzrə manat/dollar nisbəti cari ilin səviyyəsində (1,7) götürülüb.

### Əhalinin yeni sayı

İlin əvvəlindən ölkə əhalisinin sayı 5 777 nəfər və ya 0,1 faiz artaraq 2025-ci il mart ayının 1-i vəziyyətinə 10 milyon 230 min 666 nəfər təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunub ki, əhalinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

# Əsas meyar peşəkarlıqdır

## Yol polislərimizin peşə hazırlığı yüksək səviyyədədir

Yol polisi əməkdaşı bir çox halda ölkədə qanun-qaydanın, nizam-intizamın siması sayılır. Yerli vətəndaşın da, ölkəyə gələn əcnəbinin də bir hərəkət iştirakçısı olaraq hüquqi düzən haqqında təəssüratı yolda formalaşır. Bu mənada yol polisi əməkdaşı yalnız hərəkətin təhlükəsizliyini təmin etmir, daha çox iş görür.



Azərbaycanda yol polisləri yol nəqliyyat hadisələrinin önlənməsi üçün həyata keçirdikləri tədbirlər fonunda hər gün öz peşəkarlıqlarını sərgiləyirlər. Yolda hərəkətin təşkili hər nə qədər rəqəmsal və intellektual idarəetmə kimi innovativ yanaşma ilə tənzimlənsə də, bütövlükdə prosesi YPX əməkdaşının ərazidə mövcudluğu tamamlayır. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər zamanı bunun özünü daha qabarıq göstərdiyini qeyd etməliyik. Bu tədbirlər həm də Azərbaycan yol polislərinin beynəlxalq səviyyədə xidmət təşkil edə bildiklərini, buna ustalıqlarının, bacarıqlarının yetdiyini nümayiş etdirir.

Bu günlərdə Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarının Moldovanın paytaxtı Kişinyov şəhərində mototəlim keçməsi də bunun bir təsdiqi idi. Məlumat üçün qeyd edək ki, polis kapitanı Emil İbrahimov və polis baş serjantı Samir Kərimov bu ölkənin yol polisi əməkdaşlarına texniki sürücülük bacarıqlarını, eləcə də əməliyyat müdaxilələrinə xas olan taktiki və hüquqi əsasları əhatə edən təlim keçiblər. Təlimlərdə əməkdaşlarımız ictimai asayişin qorunması üçün operativ müdaxilələr, müdafiə və təkmil sürücülük texnikaları, təqib və ələ keçirmənin taktiki üsulları, şəxsi təhlükəsizlik, mühafizə və motosikletlərə texniki qulluqla bağlı nəzəri, təcrübi bilik və bacarıqlarını bölüşüblər.

Hər iki əməkdaşımıza yüksək peşəkarlıq nümayiş etdirdiklərinə görə təşəkkürnamələr verilib. Azərbaycan YPX-nin peşə hazırlığının yüksək səviyyədə olduğu daha öncəki beynəlxalq müsabiqələrdə də dəfələrlə təsdiq olunub. Sonuncu dəfə ötən il Belarus Respublikasının Minsk şəhərində keçirilən YPX inspektorlarının peşə hazırlığı üzrə beynəlxalq müsabiqədə əməkdaşlarımız 10 növ yarışda yüksək pillələrə çıxmaqla mükəmməl nəticələr göstərmişdilər. Yarışda iştirak edən əməkdaşlarımız sürət və çeviklik, avtomobil idarəetmə bacarıqları, təhlükəsizlik tədbirlərinin tətbiqi və müxtəlif ssenarilərdə əməliyyat bacarıqlarını nümayiş etdirməklə, Azərbaycan komandasını birinci yerə çıxarmışdılar.

Kişinyovda mototəlim keçən YPX Alayının Növbətçi Hissəsinin baş növbətçi inspektoru polis kapitanı Emil İbrahimov qəzetimizə bildirib ki, ötənilki müsabiqə də Azərbaycan yol polisi əməkdaşlarının bacarıqlarını nümayiş etdirmə-



si baxımından əlamətdar olub. Onun sözlərinə görə, komandamızın peşəkarlıq bacarıqları, hazırlıq səviyyəsi Rusiya və Belarus komandaları kimi güclü rəqibləri üstələməyə imkan verib. Hətta müsabiqənin atəş mərhələsində komandamızın növbəsi çatanda qəfil güclü yağışın başlaması da, onların qələbəsinə mane ola bilməyib, hədəfi daha dəqiq vura biliblər.

Qeyd edək ki, E.İbrahimov ilk dəfə Rusiyada 2016-cı ildə MDB dövlətlərinin YPX inspektoru arasında ən yaxşı yol patrul xidməti əməkdaşı adı uğrunda müsabiqədə də birinci yerə layiq görülüb.

*R.Baxşəlioğlu*

# Veteranlar sıralarımızdadırlar

## Onlar cinayətlərin profilaktikası və açılmasına töhfə verirlər

**Daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində polis veteranlarının təcrübəsindən, bilik və bacarıqlarından səmərəli istifadə bu sahədə çox uğurlu ənənə yaradıb. Uzun illərin sınağından çıxmış mübarizə metodları onların sayəsində yeniliklərlə birləşib cinayətkarlıqla mübarizənin vahid cəbhəsini formalaşdırır.**

Obrazlı desək, cinayətkarlıqla mübarizə cəbhəsini birdəfəlik tərk etməyən polis veteranları könüllü döyüşçü ruhu ilə gənc silahdaşlarına dayaq durur, kömək edirlər. Onlar bu illər ərzində ictimai təhlükəsizliyin təmin edilməsinə, cinayətlərin profilaktikası və açılmasına töhfə veriblər. Eləcə də şəxsi heyətin təlim-tərbiyəsi, əhali arasında hüquqi biliklərin təbliği kimi olduqca vacib məsələlərin həllinə yardımçı olmaqla, əlavə ictimai dəstək gücünə çevrilə biliblər.

Hər rüb, hər hesabat dövründə veteranların köməyi ilə açılan cinayətlərin, keçirilən profilaktik tədbirlərin sayı barədə açıqlanan statistika onların ölkədə sabitliyin qorunub saxlanılmasında gördükləri işin miqyasını dəqiq təsəvvür etməyə imkan verir. Ona görə, biz də bu ilin birinci rübü ərzində veteranların fəaliyyətini təhlil edərkən, bu rəqəmlərə istinad etməyi zəruri hesab edirik.

Daxili İşlər Nazirliyinin Veteranlar Şurasından aldığımız məlumata görə, hesabat dövründə polis veteranlarının köməyi ilə respublika üzrə 2058 cinayət işinin açılması təmin olunub. Ayrı-ayrı təhsil müəssisələrində, müxtəlif mərasimlərdə, kütləvi tədbirlərdə aidiyyəti iştirakçılar qarşısında 1474 dəfə çıxışlar edilib. Eləcə də, Naxçıvanın



təhsil müəssisələrində keçirilən 40-dan çox tədbirdə veteranlar tərəfindən, polis orqanlarının fəaliyyəti, ictimai qaydanın qorunması, cinayətkarlıqla mübarizə, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi haqqında dinləyicilərə zəruri məlumatlar verilib. Münaqişəli ailələrlə iş, həm də məişət pozuntularının profilaktikası məsələləri üzrə həyata keçirilən profilaktik tədbirlər çərçivəsində də polis veteranlarının ictimai nüfuzundan geniş istifadə olunur.

Polis veteranlarının şəxsi heyətlə təlim-tərbiyə işinin aparılması, gənc əməkdaşlara peşə vərdişlərinin aşılanması, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hisslərinin formalaşdırılmasında yaxından iştirak etməsi möhkəm təməllər üzərində inkişaf edən daxili işlər orqanlarının, Azərbaycan Polisinin parlaq gələcəyinə yol açır. Nəticə göstərir ki, veteranlarımız qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçirdikləri genişmiqyaslı fəaliyyətlərilə bu gün onlara göstərilən etimadı doğrultmağa çalışırlar. Və ən əsası da, buna nail olurlar.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Ekspert rəyi, reallıqlar və nəticələr...

## Kibercinayətkarlığa qarşı mübarizədə yeni mərhələ başlayır

Kibərməkanda ölkələr arasında sərhəd məfhumu yoxdur. Bu isə bir ölkə polisinin kibercinayətkarlıqla təkbaşına mübarizəsini səmərəsiz edir. Biz əvvəllər də qeyd etmişik ki, virtual məkanda cinayətkarlar bir ölkədə yaşaya, başqa ölkədə hadisəni törədə, cinayətin izləri, dəlil-sübut isə üçüncü ölkədə ola bilər.

Bu baxımdan, məsələn, onlayn talama cinayətləri barədə polisə şikayət olanda cinayət təqibini həyata keçirmək çətinləşir. Məhz buna görə kibercinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq və məlumat mübadiləsi olduqca vacibdir. Qarşılıqlı işbirliyi ölkələrin polis orqanlarına cinayətkarların sərhədlərarası fəaliyyətlərini izləmək və qarşısını almaq imkanı verər. Yəni kibercinayətkarların sonunu dünya ölkələrinin onlara qarşı birləşməsi gətirə bilər.

Bu günlərdə yerli mütəxəssislərdən biri Osman Gündüz də xarici kiber müdaxilə ilə bağlı bank kartlarından oğurlanan böyük məbləğlərə diqqət çəkib. O, DİN-in gündəlik belə bir statistika paylaşmasını xüsusilə diqqətəlayiq hesab edir. Ekspert bunu onun göstəricisi hesab edir ki, DİN-in Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi və banklar real vaxtda işləyən bir antifraud sistem qura biliblər. Bu isə, artıq bank sektorunda kibercinayətkarlığa qarşı yeni mərhələnin başlanğıcıdır. Yəni hazırda kibercinayətkarlıq, bank sektorundakı cinayətlər tam, real vaxtda monitorinq oluna bilir. Bütün bunlar cinayətkar sxemlərin vaxtında ifşasına və qarşısının alınmasına daha yaxşı şərait yaradacaq.

Onu sözlərinə görə, bank kartları ilə olan kibercinayətkarlıqda əsas vasitələrdən biri xaricdə oturan fırıldaqçının yerli nömrə ilə zəng etməsidir.

Adətən bu məqsədlə "SİM-box" adlanan qurğulardan istifadə edilir. Yəni cinayətkar xaricdə hansısa ölkədə oturur, başqa bir ölkədə server qurur, Azərbaycanda özünə tərəfdaş tapır, "SİM-boxlar" Azərbaycana göndərilir və hansısa məkanda yerləşdirilir, potensial –"yağlı müştəri" hesab olunacaq vətəndaş müəyyən olunur.

Mütəxəssis hesab edir ki, fırıldaqçılar xaricdən olan zəngi məhz həmin "SİM-box"la yerli zəng olaraq vətəndaşa yönəldirlər. Buna görə də bu tip avadanlıqların ölkəyə gətirilməsi və tətbiqi ilə bağlı məsələlər qonşu ölkələr Qazaxıstan və Rusiyada olduğu kimi sərtləşdirilməlidir.

Şübhəsiz ki, bütün halda internet üzərindən maliyyə əməliyyatı keçirən və yaxud buna yönəldilən hər bir istifadəçi bank kartları məlumatlarının, elektron cüzdanının təhlükəsizliyinin qayğısına şəxsə özü qalmalıdır. Ölkə daxilindən də belə onlayn talamalara cəhdlər edilir. Ancaq polisin texniki əməliyyat tədbirləri onların yerini aşkara çıxarmağa və əməli törədənləri məsuliyyətə cəlb etməyə imkan verir. Zərərçəkənlər heç olmasa bundan təsəlli tapa bilirlər.

Məsələn, aprelin 11-də ölkəmizdən vətəndaşların bank kartlarından kiber üsulla oğurluq edən 3 nəfərin polis əməkdaşları tərəfindən müəyyən olunaraq tutulması buna yaxşı bir nümunədir.

# “Dəmir atlı” qəhrəmanın qardaşı

## Müharibənin odundan çıxanların həyat hekayəsi

**“Sağlığında öyünürdüm, şəhid olandan sonra isə onunla qürur duydum”. İlk baxışdan fəlsəfi yükü ağır olan, insanın cismani və ruhi varlığını ifadə edən bu cümləni onun düşünərək və ya anidən dilinə gətirməsi mənim üçün gözlənilən idi. Çünki illərdir ki, dərdin dərin qatına enənlərin belə fikir-möcüzələrinin sehrinə bələnmişəm…**

Onların ailəsi evin böyük övladı hərbçi peşəsini seçəndən sonra “kəndlərimiz atəşə tutuldu”, “sərhəddə insident yarandı” kimi müharibə xəbərlərinə sanki öyrəncəli olmuşdu. Övladı hərbçi və ya hərbi xidmətdə olan ailələrin ən böyük ağrısı şəhid xəbərləri idi.

İtkinin yerinin dolmadığını onlar da yaxşı bilirdilər. İllərdir davam edən və dizləri yeyilən şalvara vurulan yamaq kimi bir sapdan asılı qalan bu müharibənin başlanğıcı bəlli olsa da, bitməyini proqnozlaşdırmağın çətinliyi insanın əlini-qolunu çırmayıb arzularını həyata keçirməyə imkan vermirdi. Birdən “nəsə olar” tiyəsi kor bıçaq kimi asılırdı adamın ürəyinin başından və başlayırdı xırda-xırda oymağa…

Qardaşının hərbçi olması, tankçı peşəsini seçməsi, əslində, onun ürəyincə idi. Ona elə gəlirdi ki, o, qardaşının yanında olmayanda ona arxa, dayaq, hətta qardaş olan tankı var. İllər sonra o tankın qardaşını niyə qoruya bilmədiyini özünə dərd edəcəkdi və cavabsız suallara özü döyüşlərə qatılandan sonra cavab tapacaqdı: Müharibə çox amansızdır, anaların göz yaşına da acımır…

Sükutu belə qənimimizə çevrilən ötən əsrdən fərqli olaraq, varlıqla yoxluq, “öyünmək”lə “qürur duymaq” arasındakı uzun, incə bir yolun bu gün öz başlanğıcını 44 günlük Vətən müharibəsindən götürməsi yaşadığımız əsri gözümüzdə müqəddəsləş-



dirdi, necə deyərlər, əlçatmaz etdi. Azadlığın, xilaskarlığın, bir sözlə, Qarabağın simvoluna çevrildi…

Düşmən tərəfdə qalan Qarabağı azad etmək üçün tank komandiri qardaşının sorağının aprel döyüşlərindən sonra Lələtəpədən gəldiyini eşidəndə valideynləri kimi həyəcanlanmışdı, ancaq həm də qürur duymuşdu. Müqəddəs bildiyimiz torpaqlara ilk dəfə ayaq basanların hansı hissləri yaşadığını qardaşının sevincdən alışıb-yanan gözlərində, bir də göz yaşlarında görmüşdü. İşğal altındakı torpaqların azadlığına qovuşmasını belə qardaşı Əlimərdansız təsəvvür etməzdi. Həmişə arzulayırdı ki, bütün döyüşlərdə qardaşının yanında olsun, düşməndən birlikdə qisas alsınlar. O günə isə hələ çox vardı…

O, 1999-cu ildə Bakıda doğulub. Sumqayıtdakı Tofiq İsmayılov adına 29 nömrəli tam orta məktəbi bitirdikdən sonra




2017-ci ildə həqiqi hərbi xidmətə yollanıb. 2019-cu ilin yanvarında həqiqi hərbi xidmətdən tərxis olunub. Əsgər çəkmələrinin ayaqlarındakı döyənəyinin yeri unudulmamış müharibə başladı xəbəri alan kimi Müzəffər Ali Baş Komandanın çağırışına qoşulanların ilk sırasında özünə yer tutur. Əvvəlcə Füzuli istiqamətində düşmənin həmləsini dəf edirlər. Sonra torpaqlarımızın azadlığı üçün Cəbrayılda, Qubadlıda döyüşür.

1941-1945-ci illər müharibəsində tankları ilə faşist mövqelərini darmadağın edən general-mayor Həzi Aslanov kimi tank komandiri qardaşının da öz “dəmir atı” ilə düşmənə aman vermədiyini bilirdi. Hərdən imkan tapıb valideynləri ilə danışanda onlara ürək-dirək verir, qələbənin çox yaxında olacağını, sağ-salamat evə dönəcəklərini deyirdi. Bu dəfə də arzular müharibənin reallıqlarına təslim olur. Qardaşı baş leytenant Əlimərdan Quluzadə oktyabrın 6-da Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalır. O, Müzəffər Ali baş Komandan tərəfindən “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltif olunub. Həyat hekayəsi bir kitaba sığmayan həmkarımız polis serjantı Həmid Quliyev Vətən müharibəsi bitdikdən sonra polis olmağı qarşısına məqsəd qoyub. 2021-ci ildə daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun keçirdiyi sıra baxışında iştirak edərkən şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğının şahidi olub. Deyir ki, həmin gün növbəti mərhələyə buraxılanda bir daha əmin olub ki, sinəsi möhtərəm Prezidentimizin verdiyi medallarla qürurdan qabaran Azərbaycan gəncliyi layiq olduğu yerlərdə mövqe tutur, irəli çəkilir. Yeri gəlmişkən, həmkarımız da “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunub. Hazırda Sumqayıt Şəhər Polis İdarəsinin Post-Patrul Xidməti Taborunun əməkdaşıdır.

*Hafiz Təmirov*
*polis polkovniki*

# Operativ tədbirlər görülür

## Hava şəraiti ilə əlaqədar əlavə polis naryadları cəlb edilib

Ölkə ərazisində qeyri-sabit hava şəraiti ilə əlaqədar gecə saatlarından başlayaraq polis










əməkdaşları gücləndirilmiş rejimdə xidmət aparır, müraciətlərə çevik reaksiya verir, zəruri tədbirlər görülməklə xidmətlərini fasiləsiz davam etdirirlər.

Qeyd edək ki, paytaxtla yanaşı ölkəboyu şəhər və rayonlarda, həmçinin magistral yollarda gücləndirilmiş rejimdə xidmət təşkil olunub. Hərəkətin intensiv olduğu küçə və prospektlərə, piyada keçidlərinə əlavə polis naryadları cəlb edilib.

Sürücü və piyadaların mənzil başına təhlükəsiz şəraitdə çatmasının təmin edilməsi üçün digər dövlət orqanları ilə birgə zəruri tədbirlər görülüb.

# Akademiyada təlim

## Polis nəzarətində saxlanılan şəxslərin əsas hüquqlarından danışılıb

İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) təşkilatçılığı ilə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında ölkəmizdə elan edilmiş “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Polis orqanlarında saxlanılan şəxslərin əsas təminatları - beynəlxalq standartlar” mövzusunda təlim təşkil olunub.

Tədbirdə çıxış edən insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva və Daxili İşlər Nazirliyinin Polis Akademiyası rəisinin birinci müavini Vüqar Mansurov təlimin işinə uğurlar arzulayıblar.

Müvəkkil çıxışı zamanı Ombudsman Aparatı ilə Daxili İşlər Nazirliyi arasında səmərəli əməkdaşlıq münasibətlərinin mövcud olduğunu, insan hüquqlarının müdafiəsi istiqamətində hər iki qurumun qarşılıqlı əməkdaşlıq və vətəndaş məmnunluğunun təmin olunması prinsipləri əsasında fəaliyyət göstərdiyini




bildirib. Ombudsman Daxili İşlər Nazirliyinin müəssisələrinə keçirilən başçəkmələrə və təlimin əhəmiyyətinə də diqqət çəkib.

Sonra tədbirdə Ombudsman Aparatının nümayəndələri Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən başçəkmələr, beynəlxalq standartlar və mexanizmlər, hüquqi yardım, polis nəzarətində saxlanılan şəxslərin əsas hüquqları və digər aidiyyəti sahələr üzrə görülən işlər barədə geniş məlumat verib, təqdimatlar ediblər.

Yekunda mövzu üzrə ətraflı fikir mübadiləsi aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Həmrəylik nümunəsi

## Xeyirxahlığımız həyat qurtarır

Ölkəmizdə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkənlərə yardım məqsədilə keçirilən, “Qan ver, yaşat!” devizi ilə hər kəsi həyat qurtarmağa səsləyən və ötən illər ərzində ənənəyə çevrilən qanvermə aksiyalarında həmkarlarımızın həmrəyliyi hər zaman nümunə olub.

Bir neçə gün öncə növbəti belə tədbir Binəqədi Rayon Mühafizə İdarəsində Səhiyyə Nazirliyinin B.Eyvazov adına Respublika Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun



Mərkəzi Qan Bankının təşkilatçılığı və dəstəyi ilə baş tutub. Qan verib, can yaşatmaq üçün səfərbər olan həmkarlarımız hamılıqla aksiyada iştirak ediblər.

Əvvəlcə xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun qan qrupu müəyyən olunub, onların səhhətində hər hansı bir problemin olub-olmaması yoxlanıldıqdan sonra qanvermə aksiyasına start verilib.

Qanvermənin qan dövranı sisteminin cavanlaşmasına, infarkt və insult riskini azaltdığına, bədəndəki dəmir səviyyəsinin normaya düşməsinə, qan təzyiqini normal saxlamağa kömək etdiyinə, bir sözlə, insan orqanizminə faydası ilə yanaşı, humanitar əhəmiyyətinə diqqət çəkən polis polkovniki Rəşadət Babayev onun həm də bir vətəndaşlıq borcu olduğunu qeyd edib: “Mütəmadi olaraq belə nəcib aksiyalarda iştirak etmək bizim vətəndaşlıq borcumuzdur. Vəzifəmiz asayişi qorumaq, sabitliyi təmin etmək, cinayətkarlıqla mübarizə aparmaq olan Azərbaycan polisi yaxşı bilir ki, toplanan qanla neçə-neçə uşağa, gəncə, yaşlı insana həyat bəxş edilir. İnsanları həyata bağlayan belə nəcib təşəbbüslərdə həmkarlarımız hər zaman ön sırada olub, bu tədbir də onun bariz nümunəsidir”.

*"Polis"*

# Polis gəncliyi də qoruyur, gələcəyi də…

## Maarifləndirmək mübarizəni daha kəsərli edir

Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirici görüşləri davam etdirirlər.

Növbəti belə tədbir Xətai Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 55 nömrəli tam orta məktəbdə keçirilib. Görüşdə çıxış edən RPİ-nin rəisi polis polkovniki Vaqif Müslümov narkomaniya ilə mübarizədə görülən kəsərli tədbirlərdən danışıb, bu bəlanın cəmiyyət üçün yaratdığı problemləri, insan sağlamlığına ziyanını sadalayıb. Qeyd olunub ki, polis narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində əməliyyat tədbirləri ilə yanaşı, belə maarifləndirici görüşlərin keçirilməsinə də xüsu-



si önəm verir. Polis rəisi gənclərimizi, uşaqlarımızı “ağ ölüm”dən qorumaq, həmçinin narkotiklərin satışı, alışı və istifadəsi ilə məşğul olanların məsuliyyətə cəlb olunmaları üçün birgə səylərin vacibliyini xüsusi vurğulayıb.

Polis əməkdaşları Cəlilabad rayon Alar kənd 1, 2 və 3 nömrəli tam orta məktəblərinin şagirdlərini narkomaniya, erkən nikah və



kibercinayətkarlığa qarşı mübarizə mövzusunda maarifləndiriblər.

Cəlilabad Rayon Polis Şöbəsinin rəisi polis polkovniki Polad Qarayev müasir dövrdə bütövlükdə bəşəriyyət üçün böyük bəlaya çevrilən narkomaniya ilə mübarizənin vacibliyindən, sağlam gəncliyin və etibarlı gələcəyin qurulması baxımından bu cür maarifləndirici görüşlərin davamlı şəkildə təşkilinin zəruriliyinə diqqət çəkib. Narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində hüquq-mühafizə orqanlarının barışmaz və qətiyyətli tədbirləri ilə bağlı görüş iştirakçılarına məlumat verib.

Erkən nikah hallarına qarşı mübarizə ilə əlaqədar həyata keçirilən tədbirlər, qanunvericilikdə nikah yaşı, erkən nikahın fəsadları da tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Görüşdə həmçinin, kibercinayətkarlıq hallarına qarşı görülməli olan təhlükəsizlik tədbirlərindən söhbət açılıb, bank və digər şəxsi məlumatların qarşı tərəfə ötürülməsinin yolverilməzliyi qeyd edilib.

*"Polis"*

# Oğruların aqibəti

## Əməllərinə görə məsuliyyətə cəlb olundular

Nəsimi rayonu ərazisində yerləşən restoranların birindən bir nəfərə məxsus mobil telefon oğurlanıb.

Nəsimi RPİ 19-cu Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 35 yaşlı A.Məmmədova saxlanılıb. Ondan psixotrop maddə olan metamfetamin də aşkarlanıb.

Sabunçu rayonu Bilgəh qəsəbəsindəki evlərin birinin həyətindən dəyəri 6000 manat olan yeddi ədəd kondisioneri oğurlamaqda şübhəli bilinənlər 38 yaşlı C.Qədimov və 33 yaşlı R.Novruzov müəyyən olunaraq Sabunçu RPİ 14-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə saxlanılıblar.

Bundan başqa, Sabunçu rayonu ərazisində yerləşən evlərin birindən qızıl-zinət əşyası oğurlayan 22 yaşlı A.Qulizadə, Nərimanov rayonunda isə bir nəfərə məxsus 2000 manat dəyərində mobil telefonu talayan 35 yaşlı A.Əliyev də saxlanılıb.

Daha bir oğurluq hadisəsi isə Yasamal rayonunda baş verib. İçərisində bank kartları və sənədlər olan pul kisəsini talayan, əvvəllər də oğurluqla bağlı cinayətə görə məhkum olunmuş 40 yaşlı S.Əhmədov müəyyən edilərək saxlanılıb.

Faktlarla bağlı araşdırma aparılıb.

*"Polis"*

# “Zeigarnik” effekti

## Bu effekt cinayətlərin açılmasında da mühüm rol oynayır

“Zeigarnik” effekti yarım qalmış, tamamlanmamış işlərin tamamlanmış işlərə nəzərən daha aydın və asanlıqla xatırlanmasını ifadə edən psixoloji fenomendir. Bu hal ilk dəfə əslən yəhudi olan sovet psixiatrı və psixoloqu xanım Bluma Zeigarnik tərəfindən müəyyən edildiyi üçün onun şərəfinə belə adlandırılıb.

1925-ci ildə B.Zeigarnik və psixoloq dostları restoranda şam yeməyi yeyərkən müştərilərə tək xidmət edən, aldığı sifarişləri heç bir yerə qeyd etmədən onlara çatdıran ofisiant onun diqqətini çəkir.

Onun güclü yaddaşına heyran olan psixoloqlar ofisiantdan bunu necə etdiyini soruşurlar. Ofisiantın cavabı sadə və maraqlı olur: “Sifarişləri yaddaşımda saxlayır, yeməkləri çatdırdıqdan sonra isə onu silirəm”.

Bitirilməmiş, sona çatdırılmamış işlərin insan beyninə, xüsusən də zehnə təsirini araşdırmaq üçün B.Zeigarnik 1927-ci ildə tədqiqata başlayır. O, bir qrup insana laboratoriyada kiçik tapşırıqlar verir. İnsanlar bu tapşırıqları yerinə yetirərkən digər bir qrup araya girir. Beləliklə, verilən tapşırıq yarımçıq qalır. Lakin tədqiq olunanlara tapşırıqlarla bağlı sual veriləndə məlum olur ki, sonradan tapşırığa müdaxilə edənlər tapşırığı tamamlamaq üzrə olanlara nisbətən, 2 qat daha yaxşı xatırlayırlar.

Zeigarnikin tədqiqatlarından altmış il sonra, Kenneth McGraw başqa tədqiqat aparır. Tədqiqata qatılanlara pul mükafatı qarşılığın-



da çətin tapşırıq verir. Tədqiqat başladıqdan müəyyən bir müddət sonra heç kimin tapşırığı tamamlamasına fürsət verilmir və tədqiqatın bitdiyi deyilir. Ancaq iştirakçılara tapşırıqları tamamlamasalar da vəd olunan mükafat verilir. Bundan sonra tədqiqatın mahiyyəti üzə çıxır, çünki tədqiqata qatılanların böyük əksəriyyəti verilən işi sona çatdırmaq üçün can atırdılar.

“Zeigarnik effekti” ilə gündəlik həyatımızda da çox rastlaşırıq. Məsələn, televiziya proqramlarının sonunda “Ardı var” yazısı, eləcə də satışa çıxmayan, qiyməti, keyfiyyəti insanlara məlum olmayan məhsulların reklamı da bu effektə nümunədir.

“Zeigarnik effekti”nin bizə nə qədər təsir göstərəcəyi malik olduğumuz xüsusiyyətlərdən asılıdır. Əgər, hər bir şeyi mühakimə ediriksə, deməli, məsələnin sonunu bilmək bizə maraqlıdır. Bu zaman sözügedən effektə daha çox məruz qalacağıq. Lakin məsələnin sonunun necə olacağı bizə vacib deyilsə, deməli, təsirə az məruz qalacağıq.

Fikrimizi yekunlaşdırsaq, keçmişdə planlayıb, həyata keçirə bilmədiyimiz işlərimizlə bağlı uğursuzluqları, təmin olunmamış duyğuların, yarım qalmış sevgilərin ağrıları bizə “Zeigarnik effekti” olaraq ya “kaş ki”lər şəklində, ya da “yarım qalmışlıq hissi” olaraq geri dönür.

*Aytən Tahirova*
*polis kapitanı*

# Cavabı o tapdı

## Böyük uğurlar kiçik sınaqların bəhrəsidir

Ötən sayımızda ünvanladığımız sual oxucularımızın əksəriyyəti tərəfindən doğru cavablandırılıb.

Şamaxı zəlzələsinin nəticələrinin aradan qaldırılmasında böyük xidmətlər göstərənin, ölkəmizdə maarifçilik hərakatına başçılıq edərək “Qızlar məktəbi” tikdirənin, Nəriman Nərimanovun “Nadir şah” əsərinin, Nəcəf bəy Vəzirovun dram əsərlərinin, Məhəmməd Hadinin şeirlər kitabının, Axund Mirməmmədkərim Mircəfərzadənin üç cildlik “Quranın şərhi və tərcüməsi”əsərinin nəşrinə köməklik edənin böyük messenant Hacı Zeynalabdin Tağıyev olduğunu isə hamıdan birinci qəzetimizə yazıb göndərən DİN Daxili Qoşunlar Baş İdarəsinin Qərargahının kimya xidmətinin rəisi polkovnik Əlləddin Dəmirçiyev olub.




Onun nəsri milli düşüncə və məfkurə nəsridir. Ən kiçik hekayələrində mənsub olduğu millətin tarixi ilə qürur duyur, sabahına inamını və narahatlığını dönə-dönə vurğulayırdı. Bu, onun vətəndaş yanğısından irəli gəlirdi.

1941-1945-ci illər müharibəsində qeydə aldığı cəbhə gündəlikləri sonralar böyük əsərlərinin yazılmasına təkan vermişdi. Faşist Almaniyasının əldə etmək istədiyi “Rusiya ərazisi”nin qədim türklərin yaşayış məskənləri olduğunu o, yaxşı bilirdi.

Romanlarından birini tənqidçilər xarakterlər romanı kimi qeyd edirlər. Sovet ideologiyasını hədəfə alan, ideoloji təsiri işıq üzü görəndən sonra mübahisələrə səbəb olan bu əsərə görə yazıçının başı çox bəlalar çəkmişdi. Sağlığında sapı özümüzdən olan baltalardan da az zərbə görməmişdi.

**Söhbət kimdən gedir?**

*"WhatsApp":*
*+994 55-875-16-39*

# Bir sual, bir cavab

## Vətəndaş soruşur, polis cavab verir

Polisin, daxili işlər orqanlarının vəzifələri, fəaliyyət sferası barədə vətəndaşların məlumatlandırılması prioritetlərdəndir. Odur ki, Daxili İşlər Nazirliyinin sosial şəbəkə hesablarında, rəsmi internet səhifələrində mütəmadi olaraq verilən məlumatlar məhz buna xidmət edir. Vətəndaş günün istənilən saatında üzləşdiyi problemlə, onu narahat edən hər hansı bir məsələ ilə bağlı polisə etdiyi müraciətin həllinin mümkünlüyünə əmin olursa, bu, xidmətin və rəhbərliyin tələblərinin yerinə yetirilməsinin bariz nümunəsidir. DİN-in mia.gov.az saytı da vətəndaş müraciətlərinin ən çox ünvanlandığı resurslardandır. Diqqətçəkən məqam odur ki, “Polisə verilən suallar” bölməsində yer alan sualların, daha doğrusu, vətəndaşların polisə müraciətləri və onlara verilən cavabların da maarifləndirici xarakter daşıyır.

Necə deyərlər, vətəndaş soruşur, biz də cavablandırırq.

**Sual:** Dəymiş ziyanın ödənilməsi necə həyata keçirilir?

**Cavab:** Mülki Məcəllənin 21-ci maddəsinə müvafiq olaraq zərər (ziyan) dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi, habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

Daxili işlər orqanlarının çoxşaxəli gündəlik fəaliyyəti həmçinin inzibati xətaların və cinayətlərin profilaktikası ilə yanaşı həmin növ pozuntuların aşkar edilərək zərərçəkmiş şəxslərə dəymiş ziyanın ödənilməsinin, təqsirkar şəxslərin məsuliyyətə cəlb olunmasının təmin edilməsindən ibarətdir.

Vətəndaşlara dəymiş ziyanın ödənilməsi prosedurunun aydınlaşdırılması ilk növbədə hansı hüquqpozma nəticəsində vurulmasından asılıdır. Belə ki, inzibati xəta nəticəsində, məsələn maddi ziyanla və ya sağlamlığa yüngül zərər vurma ilə nəticələnən yol nəqliyyat hadisələri üzrə ödəmələr tərtib edilmiş inzibati xəta haqqında protokol əsasında sığorta şirkətləri tərəfindən ödənilir. Eyni zamanda döymə, xırda talama, qəsdən əmlaka ziyan vurma (İnzibati Xətalar Məcəlləsinin 157,227, 232-1 maddələri) ilə bağlı ilkin yoxlama aparılarkən təqsirkar şəxs zərərçəkmiş şəxslə barışaraq ziyanı könüllü şə-



kildə aradan qaldırdıqda inzibati məsuliyyətdən azad olunur. Lakin inzibati icraat zamanı ziyan ödənilmədikdə prosessual qərar və ya inzibati xəta haqqında protokol əsasında zərərçəkmiş şəxs müstəqil qaydada məhkəmə qarşısında mülki iddia qaldıra bilər.

Bu növ araşdırmalarda hüquqpozuntusundan əmələ gələn öhdəlik kimi mülki məsuliyyət nəticə etibarilə inzibati icraatda paralel, cinayət prosesində isə onun tərkibindəki kimi baxıla bilər.

Cinayət nəticəsində ziyanın vurulmasının ödənilməsi qaydaları bir qədər fərqlidir. Belə ki, Cinayət-Prosessual Məcəllənin 181-ci maddəsində ziyan bilavasitə cinayət nəticəsində vurulan və cinayətlə əlaqəli kimi olmaqla 2 növə ayrılır.

Bilavasitə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə fiziki və ya hüquqi şəxsə maddi ziyan vuruldaqda o, ziyanın ödənilməsi barədə mülki iddia verməklə itirilmiş və ya zədələnmiş əmlakın dəyərinin, mümkün olan hallarda isə əmlakın natura şəklində ödənilməsini, itirilmiş əmlakın satın alınmasına, habelə zədələnmiş əmlakın keyfiyyətinin, əmtəə görünüşünün bərpa və təmir edilməsinə sərf olunmuş xərclərin ödənilməsini - itirilmiş gəlirin ödənilməsini, mənəvi ziyanın ödənilməsini tələb edə bilər.

Maddi ziyan o halda cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi ilə əlaqədar vurulmuş hesab olunur ki, o: zərər çəkmiş şəxsin müalicəsinə və ona qulluq göstərilməsinə, zərər çəkmiş şəxsin dəfninə, sığorta ödəməsinə, müavinət və pensiya verilməsinə, əmlakın mühafizəsinə dair müqavilənin icrasına çəkilən xərclər şəklində özünü göstərsin.

Bununla yanaşı Cinayət-Prosessual Məcəllənin 190-cı maddəsinə əsasən zərər çəkmiş şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə onun sağlamlığına vurulmuş ziyana görə cinayətlərin təsnifatından asılı olaraq məhkəmə hökmü və ya cinayət prosesini həyata keçirən orqanın müvafiq qərarı əsasında kompensasiya almaq hüququna malikdir.

Cinayət prosesində zərərçəkmiş şəxs həmçinin mülki iddiaçı, təqsirləndirilən şəxs isə mülki cavabdeh qismində tanınır və məhkəmə cinayət işinin materiallarına baxarkən işin halları buna imkan verdiyi halda həmçinin mülki ziyanın ödənişi məsələsinə hökm və qərarında hüquqi qiymət verir.

Misal olaraq təkrar dələduzluq cinayətinə görə təqsirləndirilən şəxs zərərçəkmişlə barışmış və dəymiş ziyanı tamamilə ödəmişdirsə, vurulmuş ziyanın 25 % miqdarında dövlət büdcəsinə ödəniş etdikdə o, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorla razılaşdırılmış prosessual qərar əsasında cinayət məsuliyyətindən azad edilir. Lakin qanunvericilik bu imkanı şəxsə yalnız 1 dəfə verir. Digər hallarda şəxs məsuliyyətə cəlb olunur, ziyanın ödənişi isə cəzanın təyini zamanı yüngülləşdirici hal kimi nəzərdə tutula, habelə gələcəkdə mülki iddianı istisna edə bilər.

Ziyanın miqdarı, həcmi, xarakteri isə konkret cinayətdən asılı olaraq müvafiq ekspertizalarla, mütəxəssis arayışları və kriminalistik metodikanın sair üsulları ilə müəyyənləşdirilə bilər.

# Qəbələdən-Xankəndinə

## Ultramarafonda həmkarımız da iştirak edib

Qəbələ şəhərindən start götürən və 192 kilometr məsafəni əhatə edən yarışa 81 atlet qatılıb. Ultramarafon iştirakçıları arasında Türkiyə, Ukrayna, Rusiya, Moldova və Gürcüstan at-



letləri də olub. İştirakçılar Qəbələdən Ağdaşa 55, Ağdaşdan Bərdəyə 65, Bərdədən Ağdama 44, nəhayət Ağdamdan Xankəndinə 28 kilometr qaçıblar. Ağdamdan başlayan sonuncu mərhələ Xankəndidə başa çatıb. Son mərhələnin qalibi kişilər arasında türkiyəli Ömər Alkanoğlu olub. Onun həmyerlisi Üzeyir Söyləmez və gürcüstanlı Giorgi Lomidze müvafiq olaraq, 2-ci və 3-cü yerləri tutublar. Qadınların mübarizəsində isə türkiyəli Hasibə Dəmir bütün rəqiblərini qabaqlayaraq finişə hamıdan tez çatıb. Ukraynalı Olena Şevçenko 2-ci, Azərbaycan təmsilçisi Leyla Abdinova 3-cü olub.

Dörd mərhələnin nəticəsinə əsasən, Üzeyir Söyləməz və Olena Şevçenko yarışın baş mükafatına (4000 manat) layiq görülüblər. İkinci yeri tutan Ömər Alkanoğlu və Hasibə Dəmir 3000, üçüncü olan Giorgi Lomidze və rusiyalı Mariya Kalpakova 2000 manata sahib çıxıblar.

Qeyd edək ki, ultramarafonda DİN Əlahiddə Çevik Polis Alayının əməkdaşı polis serjantı Elşad Nəsibov da iştirak edib. O 40+yaş kateqoriyasında marafonun qalibi olub.

Yarışla bağlı təəssüratlarını bölüşən həmkarımız bildirdi ki, o, Bərdədən Ağdamadək olan 44 kilometrlik məsafəni marafona qatılan əcnəbilərdən sonra ilk qət edən azərbaycanlı idmançıdır.

*"Polis"*

# Onların aeroportu yoxdur

## Bu dövlətlərin hamısı Avropa qitəsindədir

İspaniya ilə Fransa arasında yerləşən Andorra Knyazlığının sahəsi cəmi 468 kvadrat kilometrdir. Pireney dağlarının qoynunda yerləşən bu ölkədə relyef aeroport tikməyə əlverişli deyil. Knyazlığa ən yaxın hava limanları Barselona və Tuluz şəhərlərində yerləşir.

Ən ucuz evin 1 kvadrat metrinin 100 min dollar olduğu Monakonun da aeroportu yoxdur. 208 hektar ərazisi olan ölkəyə gəlmək üçün ən yaxın hava limanı 20 kilometrlikdəki Nitsa şəhərində (Fransa) yerləşir. 160 kvadrat kilometr sahəsi olan Lixtenşteyn Knyazlığının qonşu sarıdan bəxti gətirib. Ölkə Avstriya ilə İsveçrənin arasında qərar tutub. Lixtenşteynlilər üçün ən yaxın aeroport İsveçrənin Sürix şəhərində yerləşir. Avropanın üçüncü ən kiçik ölkəsi olan San-Marinonun (61 kvadrat kilometr) vətəndaşları İtaliya aeroportlarından istifadə edirlər.

Dünyanın ən kiçik dövləti olan Vatikana (0,4 kvadrat kilometr) gəlib-getmək üçün Roma aeroportundan istifadə etmək lazımdır. Ən əsası, aeroportun yoxluğu bu ölkələr üçün heç bir məhdudiyyət yaratmır.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik